23 may 2015

WWW.KASPI.AZ



İbrahim Yusifoğlu

# Uşaq dünyası

## DÜŞ GƏL YERƏ, GÜLƏŞƏK

Araz deyir: - Ay Günəş,
İşığın aşıb - daşır.
Sənə baxa bilmirəm,
Gözlərim bərk qamaşır.

Qaçıb çıxmısan göyə,
Cığallığından əl çək.
Əgər məndən qorxmursan,
Düş gəl yerə güləşək!

## AYNA

Bu şirindil , gül bala,
Mehriban qız Aynadı.
Əlləriylə tutduğu
Balaca bir aynadı.

Ayna aynaya baxcaq,
Qanı yaman qaynadı.
Aynadakı qız ilə
Deyib-gülüb , oynadı!



## GÜNƏBAXAN

Günəbaxan, günəbaxan ,
Ay özünü günə yaxan.
Quşlar səni dənləyəcək,
Açıq qalıb axı yaxan.

## AYTƏNƏM

Boynubükük bitən gül,
Nə olubdu, qəmlisən?
Ağlamısan elə bil,
Ləçəkləri nəmlisən.



Səndən şeir bilirəm,
Mənə öyrədib nənəm.
Tanımadın sən məni?
Səni sevən Aytənəm

## ÇAYDAN

Qazın üstündə çaydan,
Özünü bərk saxladı.
Alovlar qəzəblənib,
Onu yaman dağladı.
Yazıq çaydan dözməyib,
Hönkür-hönkür ağladı!

## ƏNCİR ÇATIR ARAZA

Baba deyir: - Alça var,
Kim yeyirsə, tez desin.
Araz deyir: - Alçanı,
İlkin dostumuz yesin.

Baba deyir: - Gilasa
Buyurun, qonaq olun!
Araz deyir: - Gilasdan
Xoşu gəlir Toğrulun.

Baba deyir: -Ənciri
Bəs hansı balam yesin?
Araz deyir: - Onu da
Axıra qalan yesin.

## QARIŞQALAR

Yuvaları önündə,
Qarışqalar qaynayır.
Toxunmayın onlara,
Bir- biriylə oynayır.

Hücum vaxtı xırmana,
Düzülürlər sıraya.
Buğda dənələrini,
Tez alırlar araya.

Yolda hansı yorulsa,
Köməyinə çatırlar.
Mənzilə yetənəcən,
Lap qan – tərə batırlar.

Qış uzunu havalar,
Şaxta olsun, ya da qar,
Yeməyin azlığından,
Qorxmayır qarışqalar!

## ÇIRAQ

Çıraq yanır bayaqdan,
İşığını az salır.
Nəsə olub çırağa,
Yamancana sozalır.

Akif dedi:- Bilirəm,
Əlacını çox asan.
Gərək onun astaca,
Qulağını burasan.

## DOVŞANA BAX ...

- Babacan, bax dovşana,
Sığınıbdı yovşana.
Gözləyir ki, biz gedək,
Gəlib girsin bostana!



## ALMA NEYNİR ALMANI

Babanın gətirdiyi ,
Boğça dolu almadı.
Almaya alma verdi,
Alma alma almadı.

Alma dedi : - almaram.
Almanı , baba canı.
Mənim özüm almayam,
Alma neynir almanı!

## ULDUZLAR YERƏ YAĞIR



- Babacan, ay babacan,
Nənəni də tez çağır.
Göydə olan ulduzlar,
Qar olub yerə yağır.

## POLİS ƏMİ

Polis əmiyə baxın,
Hamı keçiddən keçir,
Təkcə yolda o qalır.
Küçənin ortasında
Özü də ki fit çalır.

## AYAN

Rəqs eyləyən bir qıza
“Dovşan” - dedim dayandı.
Maskasını soyunub,
Dedi: - Adım Ayandır.